**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA İMADƏDDİN NƏSİMİ OBRAZININ İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5716.01– Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Püstə Səməddin qızı Əhmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2023**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Əli Həsənqulu oğlu Həşimov**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, pofessor
**Yaqub Məhərrəm oğlu Babayev**

Filologiya elmləri doktoru
**Salidə Şəmməd qızı Şərifova**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ramiz Asəf oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Əbülfəz Aman oğlu Quliyev**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
**İman Zeynalabdin oğlu Cəfərov**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru
**Fərman Yunis oğlu Xəlilov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Görkəmli şəxsiyyətlərin həyatı, mühiti və yaradıcılığının öyrənilməsi, ümumən, elmimiz və mədəniyyətimiz üçün həmişə vacib və böyük əhəmiyyət kəsb edən bir məsələdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, *"Tariximizdə hər bir şəxsiyyətin öz yeri var"*[1]. İlk növbədə görkəmli şəxsiyyətlər Azərbaycan xalqının milli-ictimai inkişafı, düşüncəsi və müxtəlif yaradıcılıq sahələrindəki fəaliyyəti ilə ümumi inkişafa misilsiz xidmət göstərmiş, Azərbaycan xalqının tarixinin və mədəniyyətinin mühüm bir hissəsini təşkil etmişlər. Bu mənada görkəmli şəxsiyyətlərin mühiti, həyatı və fəaliyyətinin öyrənilməsi, həm o görkəmli şəxsiyyətlərin əbədiyaşarlıq qazanması və təbliğinə göstərilən ehtiram nümunəsi olmuş, həm də müəyyən bir mərhələdə xalqımızın keçdiyi tarixi inkişaf yolunu dərindən öyrənmək baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu mənada bədii ədəbiyyatımızda hələ çox-çox əvvəllərdən başlayaraq görkəmli ədəbi simalar olan Nizami Gəncəvinin, İmadəddin Nəsiminin və başqalarının daha çox obrazları yaradılan bədii yaradıcılıq ənənəsi formalaşmışdır. Bu ənənələr üzərində müasir dövrümüzdə yaranan ədəbiyyat nümunələri içərisində X.Şirvanidən başlayaraq M.Gəncəvinin, N.Gəncəvinin, İ.Nəsiminin, Ş.İ.Xətainin, M.Füzulinin, M.P.Vaqifin, S.Ə.Şirvaninin, C.Məmmədquluzadənin, H.Cavidin, M.Ə.Sabirin və əlbəttə, adları çəkilməyən çoxsaylı digər ədəbi simaların obrazları yaradılmışdır.

Bədii ədəbiyyatımızdakı bu zərurəti və ehtiyacı H.Qasımovun roman janrı timsalında qeyd etdiyi fikirlərə istinadən belə ifadə etmək olar: "*Ümumiyyətlə, tarixi şəxsiyyətlər, uzaq və ya yaxın hadisələr ədəbiyyatın güzgüsündə daha aydın, həm də təhlili xarakterdə əksini tapa bilir. Burada həm də hər bir tarixi şəxsiyyətin taleyinə xalqın taleyi kimi baxılması imkanı qazanılır"*[2]. Bu mənada belə əsərlər arasında böyük Azərbaycan şairi və mütəfəkkiri, filosof

---

[1] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 1997, – s.104

[2] Ənvəroğlu, H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri / H.Ənvəroğlu – Bakı: – Elm, – 2004, – s. 559

şair adlandırılan İmadəddin Nəsiminin obrazı yaradılan, onun qəhrəmanlığı və mübarzəsinə, həyatı və fəaliyyətinə həsr edilən əsərlər də çoxluq təşkil edir.

Məlumdur ki, İmadəddin Nəsimi ömrü mübarizələrdə keçən, insan azadlığı uğrunda əzmlə mücadilə aparan mütəfəkkir sənətkardır. Bu görkəmli anadilli Azərbaycan şairini elm aləminə tanıtmaqda böyük rol oynamış və onun haqqında ən qiymətli sözlər demiş böyük tədqiqatçı Salman Mümtaz da "Nəsimi" adlı əsərində onun haqqında bəhs edərkən Nəsiminin türk ədəbiyyatındakı görkəmli yerinə və roluna da göstərilən münasibəti faktlarla ifadə edərək yazmışdır: *"Nəsiminin ümumi türk tarixi-ədəbiyyatında böyük mövqeyi vardır. Türk tarixi-ədəbiyyatı yazanlar ondan bəhs etmədən keçmirlər. Ali Əfəndi bu həqiqəti etiraf edib: "Türki şeirlərə rövnəq verən Seyidimiz budur" deyir"*[3].

İ.Nəsiminin yaradıcılığı, həyatı və dövrü Azərbaycan tarixinin, mədəniyyətinin ən mühüm bir hissəsini təşkil etməkdədir. Bu baxımdan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev başqa görkəmli şəxsiyyətlər kimi İmadəddin Nəsimi irsinə də hər zaman qayğı ilə yanaşmış, ona yüksək qiymət vermiş, həmçinin Nəsimiyə təkcə şair kimi deyil, alim və filosof kimi yanaşmış, belə görkəmli şəxsiyyətlərə verilən qiymətə və tanıdılması işinə dünya ictimaiyyəti arasında xalqın hörmətinin qaldırılması aktı kimi qiymət ifadə etmiş, habelə onun tanıdılması sahəsində misilsiz işlər görmüşdür. Hələ 70-ci illərdə görkəmli dövlət xadimi Heydər Əliyev bu böyük ədibin Hələbdəki məzarının tapılması və təmiri ilə bağlı nə qədər əhəmiyyətli işlər görmüş, 600 illik yubileyinin keçirilməsini ölkəmiz və YUNESKO səviyyəsində qeyd edilməsini gerçəkləşdirmişdir.

Azərbaycanda Nəsimi şəxsiyyətinə olan ehtiram ardıcıl olaraq davam etdirilmiş, sənəti, irsi və şəxsiyyətinin öyrənilməsi istiqamətində işlər daha da inkişaf etdirilmişdir. Ölkə başçısı İlham Əliyevin sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olunmuş, bu görkəmli və əbədiyaşar mütəfəkkir-sənətkarla bağlı

---

[3] Mümtaz, S. Azərbaycan ədəbiyyatının qaynaqları / S.Mümtaz. – Bakı: Avrasiya press, – 2006, – s.297

ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu baxımdan ədəbiyyatımızda da Nəsimi şəxsiyyətinə olan rəğbət hər zaman yüksək səviyyədə olmuş, onun yaradıcılığı, şəxsiyyəti, amalı, mübarizəsi də bir ənənə, məktəb təşkil etmişdir. Ədəbiyyat adamları, şair və yazıçıların hərəsi bu görkəmli şəxsiyyətin adı ilə bağlı olan müxtəlif qiymətli bədii əsərlər yaratmış, poetik çərçivədə mühüm bir ədəbi hadisəni, görkəmli şəxsiyyət və ideoloqu, onun əqidə və təlimini və s. əks etdirən əsərlərilə ədəbi fikrimizi zənginləşdirmişlər.

Ümumiyyətlə, "*Azərbaycan ədəbiyyatında Nəsimi mövzusu özünəməxsus geniş yer tutur. Bu mövzu yazıçılarımıza şəxsiyyət və zaman, hökmdar və sənətkar, insan və azadlıq, qürbət və vətən, milli iftixar duyğusu haqqında söz demək, yeni nəsilləri vətənpərvərlik və mübarizlik ruhunda tərbiyə etmək üçün böyük meydan açmışdır*"[4]. Bu mənada, qeyd edilən əsərlərin təhlili həm görkəmli elm adamının göstərdiyi problemlərin və əhəmiyyətli məsələlərin tədqiqi və təhlili üçün mühüm tədqiqat işi ortaya çıxarmış olur, həm də bu əsərlərin təhlili işığında gənc nəsillərə vətənpəvərlik və mübarizlik duyğularının təbliğində mühüm rol oynamış olur. Bu tədqiqat əsərində böyük mütəfəkkir şair İ.Nəsimiyə həsr olunan əsərlərin müəyyənləşdirilərək ədəbi təhlilə cəlb edilməsi də həm əsərlər külliyyatının ümumiləşdirilməsi, həm də Nəsimi ideallarının ədəbi düşüncə və əsərlərdə ümumi vəziyyəti və ardıcıllığını öyrənmək baxımından aktuallığını qoruyan məsələdir.

Azərbaycan ədəbiyyatşünaslığında bu mövzuda əhatəli, geniş, bitkin və konkret bir elmi-tədqiqt əsəri ilk dəfə işlənilir. Lakin bununla belə çox az sayda kiçik həcmli elmi və ya publisist məqalələrdə bu mövzu izlənilməklə müxtəlif səviyyələrdə fikirlər səsləndirilmişdir. Bu mövzuda İsa Həbibbəylinin, Qəzənfər Paşayevin, Vaqif Yusiflinin, Salidə Şərifovanın, Həsənəli Eyvazlının, Aygün Bağırlının əsərləri, daha doğrusu, elmi və publisistik məqalələri çap edilmişdir.

İsa Həbibbəylinin 2019-cu ildə nəşr olunan "Cahana sığmayan

---

[4] Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – s. 108

Azərbaycan şairi”[5] adlı olduqca sanballı və ciddi elmi əhəmiyyətə malik monoqrafiyasında Nəsimi yaradıcılığının özünəməxsus elmi təhlililə birgə Nəsimi obrazının bədii ədəbiyyat və incəsənət aləmində əksini tədqiq edən fikirlər də yer almışdır. Görkəmli alim çap olunan elmi əsərləri səciyyələndirməklə bərabər Nəsimi obrazını yaradan və onunla bağlı olan bədii əsərlərə də nəzər yetirmiş, habelə Qabilin “Nəsimi” poeması, İsa Hüseynovun “Məhşər” romanı, Bəxtiyar Vahabzadənin “Fəryad” mənzum pyesi və digər əsərlər, o cümlədən müstəqillik dövrünə nəzər salınmaqla bu dövrdə yaranan Hüseynbala Mirələmovun “Son səfər” povesti, Sayman Aruzun “Nəsimi” mənzum pyesi, İlqar Fəhminin “Nəsimi” tamaşası təhlil və tədqiq edilmişdir.

Qəzənfər Paşayevin “Nəsimi obrazı musiqi, incəsənət və bədii ədəbiyyatda” [6] adlı əsərində müxtəlif bədii yaradıcılıq sahələrində Nəsimi obrazı ilə bağlı tədqiqatları diqqət mərkəzinə çatdırmışdır. Alimin məqaləsində rus şairi Sergey İvanovun “İmadəddin Nəsimi” tarixi romanından başqa Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən Rəsul Rzanın “Son gecə” poeması, İsa Hüseynovun “Məhşər” romanı, Bəxtiyar Vahabzadənin “Fəryad” mənzum pyesi, Qabilin “Nəsimi” poeması və başqa əsərlərlə birgə aşıq ədəbiyyatı üslubunda yazıb-yaradan Mikayıl Azaflının “Dünya” adlı müxəmməsi və “Getdi” adlı cahannaməsini mövzu ilə bağlı tədqiqata cəlb etmiş, daha çox Qabilin “Nəsimi” poemasına diqqəti cəlb etmişdir.

Bu mövzuda nisbətən geniş araşdırmalardan biri kimi Vaqif Yusiflinin “Şəhidliyin zirvəsi: Azərbaycan ədəbiyyatında Nəsimi obrazı” [7] adlı məqaləsidir. Məqalədə Nəsiminin adı keçən bir bayatıdan başlayaraq Azərbaycan ədəbiyyatının İ.Hüseynov,

---

[5] Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – s. 108

[6] Paşayev, Q. Nəsimi obrazı musiqi, incəsənət və bədii ədəbiyyatda: [Elektron resurs]/https://artkaspi.az/az/nesimi-obrazi-musiqi-incesenet-ve-bedii-edebiyyatda-qezenfer-pasayev-yazir/#.

[7] Yusifli, V. Şəhidliyin zirvəsi. Azərbaycan ədəbiyyatında Nəsimi obrazı: [Elektron resurs]/https://edebiyyatqazeti.az/news/edebi-tenqid/3132-sehidliyin-zirvesiazerbaycan-edebiyyatinda-nesimi-obrazi.

B.Vahabzadə, Qabil, R.Rza, Ə.Kürçaylı, İ.İsmayılzadə, Ə.Kərim kimi şair və yazıçılarının əsərlərinə diqqəti cəlb edərək müəyyən qədər geniş təhlil aparmışdır. “Məhşər” əsərilə bağlı təhlilə xüsusi yer verən alim “Nəimi edam olunur, amma nəimilik yaşayır” fikri ilə çıxış edərək Nəsiminin və digər hürufilərin fəaliyyəti timsalında davam edən hürufilik təlimini məhz nəimilik adlandıraraq nəsimilik anlayışı üçün də bir zəmin hazırlamışdır. Elə onun ardınca da alim B.Vahabzadənin “Fəryad” pyesini təhlil edərkən Nəsimidən sonra yaşayan və yaşadılan təlimi nəsimilik adlandırmışdır.

Salidə Şərifovanın “Azərbaycan ədəbiyyatında Nəsimi yaradıcılığının əks olunması və Nəsiminin bədii obrazının yaradılmasının əsas özəllikləri” [8] adlı tədqiqat əsərində Nəsimi şəxsiyyətilə yaxından bağlı olan əsərlərin müəllifi kimi R.Rza, Qabil, Ə.Kərim, C.Novruz, X.R.Ulutürk kimi şairlərin yaradıcılığında, yəni poeziya nümunələrində diqqəti cəlb edən Nəsimi obrazı haqda məsələlər qabardılmış və tədqiq edilmişdir. S.Şərifova başqa tədqiqatçılardan fərqli olaraq bir sənətkarın yaradıcılığında, ümumən, Nəsimi şəxsiyyəti ilə bağlı olan müxtəlif əsərləri də tədqiqatın mərkəzinə gətirmiş və əhatəli, miqyaslı əsər ortaya qoymuşdur.

Bədii ədəbiyyatda Nəsimi obrazının bədii əksi məsələsini ümumiləşdirən kiçikhəcmli “Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm”[9] adlı tədqiqat əsərində Aygün Bağırlı Nəsimi obrazının yaradılması, onun şəxsiyyətinə ədəbi müraciətin bədii ehtiyacının səbəbini dilə gətirmişdir. Bir məqalənin imkanları daxilində alim mövzuya müraciət etməklə poeziyada S.Vurğunun “Azad ilham”, N.Xəzrinin “Mənim babam baxan dağlar” şeirini təhlilə cəlb etmişdir. Tədqiqatçı daha əhatəli olaraq R.Rzanın “Son gecə” poemasını təhlilə cəlb etmiş, onun haqqında ümumiləşmiş fikirlər ifadə etmişdir. Alim poeziya örnəkləri sırasında Qabilin

---

[8] Şərifova, S. Azərbaycan ədəbiyyatında Nəsimi yaradıcılığının əks olunması və Nəsiminin bədii obrazının yaradılmasının əsas özəllikləri: [Elektron resurs] / http://zim.az/humanitar/4472-azrbaycan-dbiyyatnda-nsimi-yaradclnn-ks-olunmas-v-nsiminin-bdii-obraznn-yaradlmasnn-sas-zlliklri.html.

[9] Bağırlı, A. Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm: [Elektron resurs] /http://www.azerbaijan-news.az/posts/detail/dunya-menim-sedefimdir-men-dunyanin-govheriyem-179089.

"Nəsimi", X.R.Ulutürkün, M.Yaqubun, C.Novruzun, Ə.Kərimin, S.Məmmədlinin əsərlərini xatırlatmışdır. Nədənsə tədqiqatçı Azərbaycan poeziyasında Nəsimi şəxsiyyətinə həsr olunan ən irihəcmli əsər olan Qabilin "Nəsimi" poemasının üzərindən digərlərilə müqayisədə çox səthi keçmiş və demək olar, heç təhlil aparmamışdır. Tədqiqatçı bədii nəsr nümunələri içərisində İ.Hüseynovun "Məhşər" romanı və H.Mirələmovun "Son səfər" povestinin adlarını çəkmiş, "Məhşər" əsərinə bir qədər geniş yer ayırmışdır. Beləliklə, A.Bağırlı tədqiqat əsərində bir neçə əsərdə yer alan Nəsimi obrazı haqda bəhs etmiş, Nəsimi obazının canlandırıldığı müəyyən qisim bədii əsərlərin ədəbi xəritəsini təqdim etmişdir.

Həsənəli Eyvazlı "Tarixi dramlarda ədəbi şəxsiyyət obrazı" [10] adlı monoqrafiyasında B.Vahabzadənin "Nəsimi" və Ə.Məftunun "Nəsimi" əsərləri haqda bəhs edərək maraqlı təhlillər aparmış, əhəmiyyətli nəticələr irəli sürmüşdür.

Başqa ayrı-ayrı əsərlərdə də Nəsimi obrazının yaradıldığı bədii əsərlər haqqında məqalələr şəklində bəhs edilmişdir. Bu əsərlərdə, ümumən, düzgün metodoloji baxış özünü əks etdirsə də, əlbəttə, tədqiqat əsərlərinin həcmi və bilavasitə tədqiqat işi olmaması səbəbindən dərininə, daha dolğun və əhatəli tədqiqat və təhlillər aparılmamış, əsasən, ümumiləşmiş fikirlər ifadə edilmiş, ya bədii əsərlərin adı çəkilərək ədəbi xronikası yaradılmış, ya da çox səthi bəhs edilərək bir çox hallarda da mücərrəd fikirlər səsləndirilmişdir.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın tədqiqat obyektini Nəsimi obrazının az və ya çox dərəcədə əks olunduğu, haqqında bəhs edildiyi Azərbaycan ədəbiyyatı nümunələri təşkil edir.

Tədqiqatın predmetini isə Nəsimi obrazı təşkil edir. Əlbəttə, qeyd etmək lazımdır ki, bir sıra bədii ədəbiyyat nümunələrində bilavasitə Nəsimi obrazından bəhs edilib, onun ədəbi portreti, şəxsiyyəti yaradılsa da, bəzi ədəbiyyat nümunələrində, xüsusilə də poeziya örnəklərində birbaşa Nəsiminin obrazı yaradılmamış, bu böyük şəxsiyyətin həyatı, taleyi və şəxsiyyəti ilə bağlı olan müəyyən məsələlər yer almış, tərənnüm və ya vəsf edilmiş, şəxsiyyət və həyat

---

[10] Eyvazlı, H. Əsərləri. [Üç cilddə] / H.Eyvazlı. – Naxçıvan: Əcəmi. – 2018. – cild 3. – s. 258.

tərzindən nümunə olaraq təbliğ edilmişdir. Buna görə də tədqiqat əsərində bilavasitə Nəsimi obrazının yaradıldığı əsərlərin təhlili və tədqiqi daha ön sırada dayanmış, digər əsərlər haqqında da müəyyən ədəbi-bədii problemdən bəhs edilərək təhlilə cəlb edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**.

Tədqiqat işinin aparılmasında başlıca məqsəd Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, mütəfəkir şair İ.Nəsiminin şəxsiyyətinə diqqət çəkmək, onun ictimai-mənəvi və ədəbi fikirdəki yeri, rolu və mövqeyini konkret-tarixi faktlar əsasında təyin etmək və sübuta yetirməkdir.

Bunun üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

– Nəsimi şəxsiyyətinin ədəbi fikirdə yaratdığı mənəvi ideal problemini təyin, təhlil və təqdim etmək;

– Nəsimi obrazı ilə bağlı bədii əsərlərin ədəbi xəritəsini müəyyənləşdirmək və təqdim etmək;

– Nəsimişünasların elmi və bədii, xüsusən də tədqiqata cəlb etdiyimiz yazarların əsərlərinin növ və janr, ideya və bədii məziyyətlərini aşkara çıxarmaq, təhlil etmək, ümumiləşdirmək;

– Nəsiminin obrazı yaradılan və ya Nəsimiyə həsr olunan mövcud bədii əsərləri növ və janr, ideya və bədii məziyyətlər prizması baxımından təhlil və tədqiq etmək;

– Ədəbi fikirdəki əfsanəvi və real Nəsimi obrazını təyin və təqdim emək;

– Ədəbi-bədii fikirdə Nəsimi şəxsiyyəti və obrazını konkret və portret şəklində öyrənmək və təqdim etmək;

– Nəsimi obrazını bədii əsərlər kontekstində öyrənərkən tarixi reallığa və konkret faktlara uyğun, müqayisəli planda öyrənilməsi də qarşıda duran vəzifələrdəndir.

**Tədqiqat metodları.** Bu tədqiqat əsərində mövzunun öyrənilməsi və problemin həlli istiqamətində müzakirəyə çıxarılan məsələlərin analiz və sintez yolu ilə öyrənilməsi başlıca metod təşkil edir. Habelə konkret-tarixi Nəsimi şəxsiyyəti ilə əfsanələşdirilmiş, təxəyyül məhsulu olan məsələlərin müqayisəli öyrənilməsi də vacib planda tutulmuşdur. Bundan başqa statistik təhlilə də müraciət edilmiş, azərbaycançı konseptual təhlil başlıca metodoloji əsası təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Bu tədqiqat əsərində aşağıda göstərilən bir sıra vacib məsələlər ümumiləşdirilərək tədqiqata cəlb olunmuş və müdafiəyə çıxarılmışdır:

– Nəsimi obrazı və şəxsiyyəti ilə yaxından bağlı olan Azərbaycan ədəbiyyatı nümunələri;

– Müxtəlif mövzu və janrlarda yazılmış bədii əsərlərdə Nəsimi obrazı;

– Nəsiminin taleyi, dövrü və mühitinin bədii əsərlərdə əksi və təqdimi;

– Nəsimi şəxsiyyətinin bədii əsərlərin ideya predmetinə çevrilən başlıca cəhətləri;

– Bədii əsərlərdəki Nəsimi obrazı ilə real, tarixi şəxsiyyət olan Nəsimi arasındakı oxşar və fərqli keyfiyyətlər;

– Nəsimi obrazının yaradılmasında yazıçı təxəyyülünün məhsulu olan məsələlər;

– Yazıçıların Nəsimi şəxsiyyəti və obrazı ətrafında söyləmək istədikləri mətləblər;

– Nəsimi ideya və ideallarının bədii əsərlərdə yaratdığı ənənələr və müasir meyillər;

– Bədii ədəbiyyatda yer alan nəsimilik və nəsimiçilik məsələsi;

– Tədqiqat predmeti ətrafında mövcud olan fikirlərə müasir ədəbiyyatşünaslıq meyarları və azərbaycançılıq nöqteyi-nəzərindən yanaşmalar və s.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan ədəbi-ictimai fikrində mühüm rol oynamış İ.Nəsimi obrazı və şəxsiyyətini əhatə edən əsərlərin təhlili və tədqiqi ilk dəfə bu tədqiqat əsərində sistemli, bitkin, konseptual və konkret şəkildə öyrənilmişdir.

Eləcə də:

– İlk dəfə bu tədqiqat işində Nəsimi şəxsiyyəti, həyatı, taleyi və idealları ilə bağlı olan əsərlər əhatəli şəkildə müəyyənləşdirilərək sistemləşdirilmiş və tədqiqata cəlb edilmişdir;

– Azərbaycan ədəbi fikrində Nəsimi obrazı ilk dəfə daha konseptual baxımdan əhatəli və təfərrüatlı şəkildə elmi tədqiqat müstəvisinə gətirilmişdir;

– Azərbaycan ədəbiyyatının müxtəlif ədəbi növ və janrlarında Nəsimi obrazı ilə bağlı olan əsərlər müəyyən edilərək geniş təhlil

edilmiş və konkret nəticələr ortaya qoyulmuşdur;

– Azərbaycan bədii düşüncəsində həkk olunmuş Nəsimi obrazı və şəxsiyyəti haqda fikirlər mövcud və real tarixi faktlarla müqayisəli şəkildə öyrənilərək reallıqla irreallıqlar süzgəcindən keçirilmiş, gerçəklik və təxəyyül nəticələri müqayisələndirilmiş, Nəsimi obrazının xarakterik bədii portreti əks etdirilmişdir;

– Məhz bu tədqiqatda ilk dəfə Naxçıvan ədəbi mühitində Nəsimi obrazına geniş elmi plan əsasında müraciət olunmuşdur;

– Eləcə də, Əkbər Məftunun "Nəsimi" mənzum pyesi geniş şəkildə təhlil edilərək konkret elmi nəticələr ifadə edilmişdir;

– Bu tədqiqat əsərində ilk dəfə problem müstəqillik dövrünün azad və milli konseptual müstəvisində araşdırılmış, milli və bəşəri məsələlər paralelliyində təhlil edilərək konkret nəticələr göstərilmişdir;

– Qabilin "Nəsimi" (1964-1973), M.Yaqubun "Şirvan alverçisi və Nəsimi" (1968), Ə.Salahzadənin "Od heykəli" (1969), S.Tahirin "Karvan gedir" (1973), R.Rzanın "Son gecə" (1973-1974), N.Xəzrinin "Mənim babam baxan dağlar" (1976) və İmadəddin Nəsimiyə həsr olunan bu silsilədən olan digər çoxsaylı poemalar, lirik şeirlər müəyyənləşdirilərək geniş, əhatəli və təfərrüatlı şəkildə təhlildən keçirilmiş, konkret elmi nəticələr əldə edilmişdir;

– İ.Hüseynovun "Məhşər", M.İsmayılın "İki od arasında", Y.V.Çəmənzəminlinin "Mirzə Əbdülvahab", H.Mirələmovun "Son səfər" və başqa nəsr nümunələri geniş təhlilə cəlb edilmiş, "Məhşər" romanının bu mövzuda ilk geniş həcmli bədii əsər olduğu qeyd edilmiş, janr səciyyəsi etibarilə əsərin tarixi mövzuda yazıldığı, lakin müəllifin öz fikirlərini sərbəst ifadə etdiyi əsər kimi qiymətləndirilmişdir;

– H.Mirələmovun "Son səfər" povesti də məhz bu səpkidə yazılan nəsr əsəri olaraq tarixi, konkret Nəsimi obrazı və mühitini deyil, müəllifin təxəyyülünə uyğun məsələləri əks etdirdiyi təhlillərin nəticəsi olaraq göstərilmiş, hətta əsərin ümumi pafosu və müəllifin şəxsi qeydlərinə əsasən, əsərdə Nəsiminin Azərbaycana, doğma vətəninə dönüşü, mübarizəsi və məşəqqətləri timsalında bir çox Azərbaycan övladlarının, o cümlədən Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin tarixi mübarizəsinin əks etdirildiyi nəticəsi

ifadə edilmişdir;

– Azərbaycan dramaturgiyasında da Nəsiminin həyatı, ideyaları və mübarizəsi məsələsi mövzuya daxil edilərək tədqiqata cəlb edilmiş və problemə çevrilmişdir.

– Ə.Məftunun "Nəsimi", F.Aşurovun "Nəsimi", B.Vahabzadənin "Fəryad", S.Aruzun "Nəsimi" dram əsərlərində nəsimilik məsələsi ifadə edilmiş, nəsimiliyin ümummilli kimlik və mübarizə məsələsi təşkil etdiyi özünün poetik əksini tapmışdır;

– Aparılan təhlillərin yekunu olaraq bu nəticə də ifadə edilmişdir ki, Nəsimi haqqında konkret, dəqiq və dürüst tərcümeyi-hal, həyat və fəaliyyət məlumatı olmadığından sənətkarlar da real, konkret Nəsimi obrazından daha çox mübarizliyi, əzmi və əyilməzliyi ilə yaddaşlara həkk olunan, təfəkkürdə yer alan bir mübarizlik və dönməz şəxsiyyət obrazı yaratmışlar.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Aparılan araşdırmalar Azərbaycan ədəbiyyatı tarixinin həm orta əsrlər – Nəsimi dövrü, həm də müxtəlif mərhələləri özündə əhatə edir ki, bu da müasir dövr mərhələsinin öyrənilməsi və tədrisi üçün əhəmiyyət kəsb edir. Eləcə də, bu tədqiqat işi Nəsimişünaslıq sahəsi və onun nəzəri-praktik cəhətdən zənginləşdirilməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

**İşin aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 26 yanvar 2016-cı il tarixli iclasında (protokol № 06) təsdiq olunmuşdur. Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Filologiya Problemləri üzrə Elmi Şuranın 28 aprel 2016-cı il tarixli iclasında mövzunun adında dəyişiklik olunmuş (protokol № 3) və mövzu qeydiyyata alınmışdır. Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 29 iyun 2016-cı il tarixli iclasında həmin mövzu (protokol № 11) təsdiq olunmuşdur.

İşin əsas müddəaları müəllifin AAK-ın siyahısına daxil edilmiş jurnal və toplularda çap etdirdiyi 17 elmi məqalə, konfrans materialı və tezisdə öz əksini tapmışdır. Dissertasiyanın nəticələri Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" və "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedralarında müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Tədqiqatın nəticələri

haqqında Naxçıvan Muxtar Respublikasının 95 illik yubleyinə həsr olunmuş Respublika Elmi Konfransında, “Çağdaş dönəmdə Türk dünyasının Aktual Problemləri” adlı Respublika Elmi Konfransında, “Bilge Tonyukuk Anısına III. Uluslararası Türk dili ve Edebiyyatları Öğretimi Sempozyumu”nda, “11. Uluslararası Kültür, Medeniyet ve Sosyal Bilimler Kongresi”ndə, “Çağdaş Azərbaycan Dilinin Aktual problemləri” mövzusunda II Respublika Elmi Konfransında, “Çağdaş Azərbaycan Dilinin Aktual Problemləri” mövzusunda III Respublika Elmi Konfransında məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin “Azərbaycan dili və ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi “Giriş”, 3 fəsil, “Nəticə” və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın “Giriş” hissəsi 15 səhifə – 23798 işarə, I fəsil 59 səhifə – 85259 işarə, II fəsil 39 səhifə – 66256 işarə, III fəsil 37 səhifə –57370 işarə, “Nəticə 6 səhifə – 8742 işarə olmaqla işin ümumi həcmi 153 səhifə –241425 işarə təşkil edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **“Giriş”** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti və s. müəyyənləşdirilmişdir.

Tədqiqatın **“Azərbaycan poeziyasında İmadəddin Nəsimiyə həsr olunmuş əsərlərin ideya-bədii xüsusiyyətləri”** başlıqlı I fəslində Azərbaycan poeziyasında canlandırılan və ya haqqında bəhs olunan Nəsimi obrazından bəhs olunmuşdur.

Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişafı tarixində mühüm yer tutan Nəsimi haqqında məxsusiliklə çoxsaylı əsərlər yazılmış, əhatəli obrazı yaradılmış, ölməz fikirləri ilə bağlı poetik nümunələr ortaya qoyulmuşdur. Bu əsərlərin hər birində böyük Azərbaycan şairi, insan azadlığı naminə mübarizəsindən dönməyən və ölümünə

mücadilə nümunəsi ortaya qoyaraq örnəyə çevrilən İmadəddin Nəsiminin taleyi, həyatı, fikirləri və ya mübarizəsi ilə bağlı ayrı-ayrı məsələlər, o cümlədən "*şəxsiyyət və zaman, hökmdar və sənətkar, insan və azadlıq, qürbət və vətən, milli iftixar duyğusu*" [11] kimi mühüm məsələlər ehtiva edilmişdir. Bu baxımdan İ.Nəsimi obrazı ilə bağlı yazılan əsərlərin arasında çoxsaylı lirik şeirlər və poemalar da üstünlük təşkil edir.

Dissertasiyanın I fəslinin **"İmadəddin Nəsimiyə həsr olunmuş şeirlərdə sənətkara poetik ehtiram"** adlanan birinci paraqrafında Nəsimi haqqında bəhs edilən və ya müəyyən məsələlərlə bağlı ona müraciətlə yazılan çoxsaylı lirik şeirlərdən danışılmış və Nəsimi obrazı üzərində təhlillər aparılmışdır.

"*Obraz həyatı, dövrün hadisələrini ifadə etməyin, varlığın məna və məzmununu açmağın, zamanın ictimai ideallarını yaratmağın, insan iradəsinə, hiss və duyğusuna təsir göstərməyin xüsusi formasıdır, ...metaforik fikirdir*"[12]. Bu baxımdan təhlilə cəlb edilən çoxsaylı bədii nümunələrdə adı əbədiyyət və azadlıq carçısına çevrilərək dönməz, mübariz və sarsılmaz iradə simvoluna çevrilmiş Nəsiminin bədii obrazı yaradılmışdır.

Həmid Araslı şairin həyatı ilə bağlı yazır: *"Nəsiminin "Divan"ında onun ölüm faciəsinə həsr olunmuş bir sıra şeirləri də var. Bu əsərlərdə şairin edamından bəhs olunur, dərisinin soyulmasından söhbət gedir"*[13]. Bu mənada lirik əsərlərdə də şairin şəxsi həyatı, şəxsiyyətindən daha çox onun mübarizlik nümunəsinə çevrilən ideyaları uğrunda mücadilə aparmasından örnək olaraq bəhs edilmiş, ədəbiyyatımızda, fikir dünyamızda oynadığı rol poetikləşdirilmiş, şair və zaman problemi kontekstində müraciət edilmişdir.

Ümumiyyətlə, poeziyamızda İ.Nəsimi haqqında bir çox lirik əsərlər yazılmışdır. S.Vurğunun "Azad ilham", R.Rzanın

---

[11] Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019, – s. 37

[12] Hacıyev, A. Ədəbiyyatşünaslığın əsasları / A.Hacıyev. – Bakı: ADPU nəşriyyatı, – 2010, – s. 109

[13] Araslı, H. Azərbycan ədəbiyyatı: tarixi və problemləri / H.Araslı. – Bakı: Gənclik, – 1998, s. 267

“Nəsimiyə”, eləcə də, “Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub”, İ.Səfərlinin “Nəsimi”, X.Rzanın “Nəsimi kimi”, Ə.Kürçaylının “Nəsimi”, C.Novruzun “Nəsimi” və başqa bu kimi lirik şeirlər Nəsiminin humanizmini, mübarizlik və dönməzliyini obrazlaşdıran qiymətli nümunələrdəndir[14].

Dissertasiyanın I fəslinin **“Poemalarda Nəsimi obrazı”** adlanan ikinci paraqrafında böyük Nəsimi şəxsiyyətinə həsr olunan və obrazı yaradılan poemalar barədə bəhs edilmişdir.

Azərbaycan ədəbiyyatında böyük ideallar şairi İmadəddin Nəsiminin obrazı yaradılan qiymətli poemalar da ərsəyə gəlmişdir. Azərbaycanda 60-cılar ədəbi nəslinin meydana gəlməsi, xüsusilə Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə siyasi hakimiyyətə gəlməsi ölkədə milliləşmə amilinə güc qatmışdır.

Ədəbi fikirdə də milli duyğuların gücləndiyi bir zamanda böyük Azərbaycan şairi İ.Nəsiminin yubileyinin keçirilməsi ilə bağlı möhtəşəm tədbirlər həyata keçirilməyə başlamış, eləcə də ədəbiyyatda Nəsimi ilə bağlı əsərlərin yazılması genişlənməyə başlamışdır. Milli duyğuların gücləndiyi bir zamanda poemaların ərsəyə gəlməsi Nəsimini xüsusi bir mövzuya çevirmişdir. İmadəddin Nəsimi haqqında yazılan ilk və ən sanballı poema Qabilin “Nəsimi” poeması olmuşdur.

Ümumiyyətlə, Nəsimiyə həsr edilən poemalar arasında Qabilin “Nəsimi” (1964-1973), M.Yaqubun “Şirvan alverçisi və Nəsimi” (1968), Ə.Salahzadənin “Od heykəli” (1969), S.Tahirin “Karvan gedir” (1973), R.Rzanın “Son gecə” (1973-1974), N.Xəzrinin “Mənim babam baxan dağlar” (1976) və başqa əsərlər yer alır. Adıçəkilən digər poemalarda da Nəsiminin ideya adamı olması, fikir ölməzliyi, mübarizliyi təcəssüm tapmışdır. R.Rzanın “Son gecə” poeması epik-lirik təsvir üsulu ilə mübariz şair Nəsiminin edamqabağı təəssüratlarını ümumiləşdirmiş, şairin edamdan əvvəlki bir gündə yaşantılarını, hətta ömrü mübarizələrdə keçən bir şairin son gecədəki mübarizəsi və qələbəsi təsvir edilmişdir. N.Xəzri poemada Nəsimini “İnsana Allah deyən insan aşiqi” kimi təqdim edirsə,

---

[14] Əhmədova, P. İmadəddin Nəsimi və ona həsr olunmuş bədii əsərlər // – Naxçıvan: Elmi əsərlər (humanitar elmlər seriyası), – 2017. №5, – s. 58

M.Yaqub onun ölməzliyi və sonsuz eşqi nümunəsində vətənpərvərliyini, elinə, xalqına məhəbbətini əks etdirmişdir.

Dissertasiyanın **"İmadəddin Nəsiminin həyatı və mühiti Azərbaycan bədii nəsrində"** adlanan II fəslində Azərbaycan bədii nəsrində İmadəddin Nəsimi obrazı yaradılan əsərlərdən bəhs olunur.

Nəsr əsərlərində Nəsimi şəxsiyyəti və dövrü ilə əlaqəli ədəbi problem daha təfərrüatlı, əhatəli təqdim edilmişdir. Bu baxımdan Azərbaycan ədəbi və ictimai fikrində özünə məxsusi yer qazanmış İmadəddin Nəsiminin möhtəşəm mübarizəsi, örnək həyatı, əhəmiyyət daşıyan dövrü barəsində bədii nəsrdə ciddi əsərlər ortaya qoyulmuşdur. İ.Hüseynovun "Məhşər", tarixçi alim və yazıçı M.İsmayılın "İki od arasında" romanları, Y.V.Çəmənzəminlinin "Mirzə Əbdülvəhab" satirik hekayəsi və H.Mirələmovun "Son səfər" povesti bədii nəsr sahəsində Nəsimiyə həsr olunmuş ən qiymətli əsərlərdəndir.

Y.V.Çəmənzəminlinin "Mirzə Əbdülvəhab" satirik hekayəsində yazıçı mötəbər şair olaraq iştirak edən Nəsimi obrazının qətiyyəti və nüfuzu fonunda yazıçılıq xəstəliyinə tutulmuş istedadsız, saxtakar şeir yazanları tənqid və ifşa etmiş, milli-ədəbi düşüncəyə xələl gətirən şöhrətpərəst, şəxsi mənafedən ötrü milli təəssüb və qeyrət sahibi olan insanları satanları ağır tənqidə məruz qoymuşdur.

Yazıçı H.Mirələmovun "Son səfər" povestində digər nəsr əsərlərindən fərqli olaraq böyük tarixi şəxsiyyət Əmir Teymurun ölümündən sonra baş verən hadisələr işığında İmadəddin Nəsiminin həyatı və obrazına diqqət çəkilmişdir. Əsərdə əhvalat və hadisələr Nəsiminin bütün dünyanı, Rum elini gəzib-dolaşıb Şamaxıya qayıtması fonunda təqdimini tapmışdır. Vətəni Şamaxıya, doğma ailəsinə, ata ocağına qayıtması hadisələrin, süjetin düyünlənməsi nöqtəsini təşkil edir. Hadisələrin belə fərqli planda təqdim edilməsi müəllifin fərqli baxış bucağını diqqətə çatdırır. Əmir Teymurun ölümündən sonrakı dönəm, həm də tarixdə belə bir məlumatın olmadığı halda Nəsiminin Şamaxıya qayıtması fonunda hadisələri başlatması tamamilə fərqlilik, özünəməxsusluq və yenilik idi. Yazıçı əsərdə: "*Doğma Azərbaycan dilinin timsalında Vətən daim onunla*

*idi*” [15] fikri ilə Nəsimi obrazını vətənin taleyi timsalında uğurla ümumiləşdirmişdir.

“*Hüseynbala Mirələmov “Son səfər” povestində İmadəddin Nəsiminin həm şair, həm də bir insan kimi keçirdiyi iztirabları qələmə almışdır*” [16] . Digər əsərlərdən fərqli olaraq H.Mirələmov əsərdə Nəsiminin iztirab və qayğılarının Hələbdə mübarizə və edam ilə deyil, vətəni Şamaxıya qayıdandan sonrakı yaşantıları ilə əlaqələndirmişdir. Fikrimizcə, məhz bu aspektdə – Nəsiminin doğma vətəninə qayıdışı və bununla başlanan böyük mübarizə və iztirab yolunun timsalında yazıçı həm də Azərbaycan xalqının ən böyük sevdalısı, onun aşiqi, mübarizi, ideoloqu, Ümummilli Lideri Heydər Əliyevin qayıdışdan sonrakı taleyinə işarə etmişdir. Bu baxımdan povestdəki Nəsimi obrazı tarixi Nəsimi yox, məhz yazıçı idealları və təxəyyülünün daşıyıcısı olan bir obrazdır. Yazıçının özü də əsərin yazılması haqqındakı məramını ifadə edərkən əsərdə real, tarixi şəxsiyyət olan Nəsimini deyil, onun həyatı üçün səciyyəvi olan iztirab və məşəqqətləri, təklənməsi və insanlıq uğrunda mübarizliyini, dəyanətini qələmə aldığını yazmışdır[17]. Bütün bunlara görə də haqlı olaraq ədəbi tənqiddə povest janr etibarilə tarixi nəsr hesab edilməmişdir. İsa Həbibbəyli də “Son səfər” povestini mövzu etibarilə tarixiliklə bağlı hesab etsə də, janr etibarilə tarixi povest janrına aid əsər hesab etməmişdir[18].

Dissertasiyanın II fəslinin **“İsa Hüseynovun “Məhşər” əsərində Nəsimi obrazı”** adlanan birinci paraqrafında görkəmli Xalq yazıçısı İsa Hüseynovun “Məhşər” romanının ideya-bədii xüsusiyyətlərinin təhlili kontekstində İmadəddin Nəsiminin obrazı

---

[15] Mirələmov, H. Son səfər / H.Mirələmov. – Bakı: Apostrof-A, – 2019. – 160 s., – s. 156

[16] Şərifova, S. Azərbaycan ədəbiyyatında Nəsimi yaradıcılığının əks olunması və Nəsiminin bədii obrazının yaradılmasının əsas özəllikləri: [Elektron resurs] / http://zim.az/humanitar/4472-azrbaycan-dbiyyatnda-nsimi-yaradclnn-ks-olunmas-v-nsiminin-bdii-obraznn-yaradlmasnn-sas-zlliklri.html.

[17] Mirələmov, H. İki cahan günəşi // H.Mirələmov. Son səfər. – Bakı: Apostrof-A, – 2019. – s. 38-40

[18] Həbibbəyli, İ. “Nəsimi ili”nə mükəmməl ədəbi töhfə: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/muzakire/4543-nesimi-iline-mukemmel-edebi-tohfe.

və taleyindən bəhs olunmuşdur.

“*...İsa Hüseynovun yaradıcılığında “İdeal”a keçid də “Məhşər”dən başlanır*”[19], həmçinin yazıçının “bütöv dünya” modeli də bu əsərlər kontekstində tamamlanmış olur[20]. Yazıçı İ.Hüseynovun “Məhşər” əsəri həm tarixə sərbəst yanaşmanın, həm də bədii nəsrdə yeni bir cığırın yaradılması baxımından ədəbiyyat tariximizdə çox mühüm rola malikdir. Həmçinin bu romanda yazıçının fərdi psixoloji üslubunun yetkinliyi öz təzahürünü tapır. Bu baxımdan yazıçı İmadəddin Nəsiminin mükəmməl obrazını yaratdığı, taleyi və ideyalarından, mübarizəsi və mücadiləsindən bəhs etdiyi bu əsərində ciddi ictimai, siyasi, mədəni və ideoloji məsələləri göz önünə gətirməyə müvəffəq olmuşdur. Ümumiyyətə, dövrün ciddi, mürəkkəb və ağır ictimai-siyasi prosesləri və Teymur kimi əzazil bir hökmdarın, eləcə də dövr üçün xarakterik olan hürufilik hərəkatı və onun banisi F.Nəiminin fəaliyyətləri kontekstində mütəfəkkir şair İmadəddin Nəsiminin obrazı, fəaliyyəti və xarakterini, rolunu bütün əhatəliliyi ilə təcəssüm etdirmişdir.

Yazıçı Nəsimidən və yaradılmış digər obraz və hadisələrdən məqsədinə uyğunluq olaraq yaşadığı dövrə, onun milli kimliyə qarşı müqavimət ideologiyasına qarşı vasitə olaraq istifadə etmişdir. *“Yazıçı burada tarixi dövrün və hadisələrin xronikasını yazmamış, Azərbaycan tarixinin son dərəcə dramatik bir mərhələsinin ictimai-siyasi hadisələrinə fəlsəfi baxış ifadə etmişdir”*[21].

Nəsimi əsərdə “Allahın ləyaqəti” hesab olunan yeni fikir və düşüncə sahibi F.Nəiminin davamçısı, varisi kimi, öz əsərləri ilə azad insan və xoşbəxt həyat haqqında fikirləri təbliğ və təqdir edən qüdrətli bir şair kimi, xalqını, ölkəsini, ümumiyyətlə, bəşəriyyəti yeni düşüncə və yaşayışa səsləyən bir fikir, ideya adamı, ideoloq və

---

[19] Həbibbəyli, İ. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya: [Elektron resurs] / http://senet.az/isa-huseynovdan-isa-mugannaya-axirinci-əlyazma-və-butov-dunya.

[20] Həbibbəyli, İ. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya: [Elektron resurs] / http://senet.az/isa-huseynovdan-isa-mugannaya-axirinci-əlyazma-və-butov-dunya.

[21] Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.Əhmədov. – Bakı: Elm və təhsil, – 2015, – s. 475.

təbliğatçı kimi mükəmməl şəkildə obrazlaşmışdır. Əlbəttə, burada digər aspektləri də izləmək, Nəsimi şəxsiyyətilə əlaqəli yazıçının ən incə məqamlara da baş vurduğunu müşahidə etmək olar. Hətta, bizim də fikrimizcə, Nəsiminin bir sıra dini doqmatik fikirləri inkar etməsi İ.Hüseynovun öz düşüncəsinin təzahürü və ifadəsidir.

Dissertasiyanın II fəslinin "**Mahmud İsmayılın "İki od arasında" əsəri Nəsimi şəxsiyyətinin əks olunduğu ədəbi-bədii mənbə kimi"** adlanan ikinci paraqrafında tarixçi alim və yazıçı Mahmud İsmayılın "İki od arasında" əsərində Nəsimi obrazı tədqiq edilmişdir.

"İki od arasında" romanı, adından da göründüyü kimi, iki dağıdıcı hərbi-siyasi qüvvənin arasında sağ qalmaq və mübarizə aparmaq problemini ifadə etmişdir. *"Yazıçı-tarixçi Mahmud İsmayılın "İki od arasında" romanında daha çox Şirvanşahlar dövrünə müraciət olunmuş"[22],* Əmir Teymurun işğalçılıq yürüyüşü apardığı dövrün əhəmiyyətli məsələləri işıqlandırılmış, eləcə də dövrün mühüm hadisələrindən olan hürufizm cərəyanı və onun başlıca simalarından olan, ustad F.Nəiminin müridlərindən biri kimi şair İmadəddin Nəsiminin də obrazını yaratmışdır. Əsərdə dilemma, iki yol arasında qalan bir ölkənin taleyi söhbət mövzusuna çevrilən bir zaman, başlıca məsələ və digər şəxsiyyətlərlə bərabər, hürufizmin bayraqdarlarından olan Nəsiminin rolu, həyatı və taleyindən də bəhs olunmuşdur. Nəsimi "İki od arasında" romanında da hürufizmin ən etibarlı, başlıca şəxsiyyətlərindən biri, hətta F.Nəiminin mənəvi varisi kimi təsvir və təqdim olunmuşdur: *"O, Ümülbanunu, Nəsimini bağrına basdı və dedi: – Oğlum, başıma bir iş gəlsə, mənim yerimdə sənsən"[23].*

Əsərdə Nəsiminin həm filosofluğu, həm də şairliyi açıq olaraq öz təsvirini tapmışdır. Yazıçı başqalarından fərqli olaraq tarixçi alim kimi endiyi mənbələrə istinadən Nəsiminin tərcümeyi-halı, həyatı və taleyini fərqli planda təqdim etməyə nail olmuşdur. Burada Nəsimi Fəzlullahın Ümülbanu adlı qızına aşiq olması, ona şeirlər yazması, hətta onunla ailə qurması ilə bağlı maraqlı bir yolla hərəkət etmişdir.

---

[22] Həşimli, Ə. Azərbaycan tarixi nəsrində Naxçıvan / Ə.Həşimli. – Naxçıvan: Əcəmi, – 2017, – s. 192

[23] İsmayıl, M. İki od arasında / M.İsmayıl. – Bakı: Gənclik, – 1987. – s. 309

“İki od arasında” romanının müəllifi M.İsmayıl fərqli olaraq Nəsiminin tərcümeyi-halına bir az ətraflı yanaşmaq istəmişdir. Yusiflə şirvanlıların söhbəti kontekstində yazıçı Nəsiminin ailəsi – atası Seyid Məhəmməd, böyük qardaşı Şahxəndan barədə xatırladıcı olsa da, məlumat daxil etmişdir.

Dissertasiyanın **“Azərbaycan dramaturgiyasında Nəsimi obrazı”** adlanan üçüncü fəslində dram əsərlərində yaradılan Nəsimi obrazından bəhs edilmişdir.

Azərbaycanın zəngin dramaturgiyası tarixində böyük humanist sənətkar İmadəddin Nəsimiyə həsr olunan əsərlər arasında Əkbər Məftunun “Nəsimi” və Firudin Aşurovun “Nəsimi”, Bəxtiyar Vahabzadənin “Fəryad”, Sayman Aruzun “Nəsimi”, İlqar Fəhminin “Yuğ” teatrında tamaşaya qoyulmuş “Mənəm, mən” adlı əsərlərinin adları xüsusi yer tutmaqdadır.

Firidun Aşurov nəsrlə yazılmış “Nəsimi” pyesini üç pərdə, on dörd şəkilli epik dram kimi təqdim etmişdir. Pyesdə iştirakçıların sayı otuza yaxındır. F.Aşurov böyük mütəfəkkir İmadəddin Nəsiminin dövrü, həyatı, mühiti, şəxsiyyəti, amal və əməlləri barədə müvafiq təəssürat yaratmaq məqsədi ilə müəyyən yaradıcılıq axtarışları aparmış, bir sıra tarixi qaynaqlarla və ədəbi materiallarla, o cümlədən şairin əsərləri ilə tanış olmuş, pyesdə yeri gəldikcə onlardan da istifadə etmişdir.

Yazıçı İlqar Fəhminin “Mənəm, mən” adlı əsərində “*hürufizm ideyalarının işığında İmadəddin Nəsiminin taleyi və idealları müasirlik baxımından işıqlandırılmışdır*”[24].

Sayman Aruzun Nəsimiyə həsr olunan beşpərdəli mənzum dramında da başlıca məsələ məhz Nəsimi və nəsimilik məsələsini bədiiləşdirən, Nəsimini ölməz edən edam səhnəsi və onaqədərki məhbus həyatı təşkil etmişdir. Burada da Nəsiminin əyilməzliyi, dönməzliyi və sarsılmazlığı mühüm yer tutmuş, haqqındakı rəvayətlərdən yaradıcı istifadə olunaraq sənətkarın şəxsiyyətindəki dəyərlərin əzəmətini göstərən mühüm keyfiyyətlər möhtəşəmliyi ilə əks etdirilmişdir. Bu əsərdə nəsimilik, onun təməli və varisliyi

[24] Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – s. 108

məsələsi bəzi görkəmli şəxsiyyətlərin – Babək, Şibli, Həllac Mənsur, Şəms Təbrizi, Fəzlullah Nəimi, Şah İsmayıl Xətai kimi obrazların görünməsi vasitəsilə reallaşdırılmışdır. "*Əsərdə İmadəddin Nəsiminin həyatı və fəaliyyətinin Hələb dövrünün hadisələri əsasında böyük mütəfəkkir şəxsiyyətin haqq və ədalət uğrunda, insanın mənəvi kamilliyi yollarında apardığı mübarizə təsirli dramatik səhnələr vasitəsilə mənalandırılmışdır*"[25]. S.Aruzun bu əsərində də Nəsiminin şəxsiyyət və ideoloq kimi qüdrətinin təqdim edilməsi məqsədilə hökmdarla görüşməsi və dialoqu səhnəsi yaradılmışdır. Nəsiminin dilindən: *"Kütləni cahil edən də dindi, din, Aqil olmaz dinlə əsla insü-cin*"[26], – deyən müəllif dinə münasibətdə nəsimiliyi öz baxış müstəvisi kontekstində oxucuya təqdim etməklə İ.Hüseynovun "Məhşər" əsərindəki "yalançı lailahəilləllahlıq" deyilən saxta dini mütləqiyyəti ictimai hegemonluqdan götürmənin zərurətini ifadə etmişdir.

Əsərin sonunda edam edilmiş Nəsiminin səsi Səfəvilər dövlətinin yaradıcısı Şah İsmayıl Xətainin sözlərinə qarışmaqla əsərin ideyasının tamamlanmasına xidmət etmişdir. Babək xürrəminin edamı timsalında əli-ayağı kəsilməklə edam edilən Nəsiminin cismi hissələrə, "*ruhu Nəsimilərə parçalanır*"[27]. Bununla da müəllif nəsimiliyin yaşaması və yayılaraq davam etməsi ideyasını ümumiləşdirmişdir. Ümumiyyətlə isə, bu əsərdə fərqli və özünəməxsus olaraq müəllif Nəsimi və onunla müəyyən məsafədə yaşamış "*müxtəlif zamanların şəxsiyyətləri olan Babək, Şeyx Heydər və Şah İsmayıl Xətai kimi obrazlar vasitəsilə Azərbaycan xalqının azadlıq və müstəqillik duyğularını təcəssüm etdirmişdir Sayman Aruz ...Nəsimini həm şair, həm də öz dövrünün böyük filosofu kimi təqdim etmişdir*"[28].

[25] Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – s. 108

[26] Aruz, S. Nəsimi dramı: [Elektron resurs]/ https://edebiyyatqazeti.az/news/poeziya/3529-gunde-min-yol-merac-eyle-esq-ile-i-getirsin-dunyani-esqin-dile.

[27] Yusifli, V. Nəsimi və nəsimilik haqqında poetik həqiqətlər // Ədalət. – 2019, 21 dekabr. – s. 15.

[28] Aran, S. Sayman Aruzun "Nəsimi" dramı haqqında: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/proza/5151-sayman-aruzun-nesimi-poemasi-haqqinda.

Dissertasiyanın III fəslinin **"Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesində Nəsimi obrazı nəsimilik və nəsimiçilik bədii-fəlsəfi kontekstində"** adlanan I paraqrafında Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesində Nəsimi və nəsimilik haqqında bəhs edilir.

Böyük Azərbaycan şairi və mütəfəkkiri İ.Nəsiminin haqqında bəhs edən dram əsərləri arasında *"...Nəsimidən ...miras qalan sözün*"[29] bahadırı B.Vahabzadənin ərsəyə gətirdiyi "Fəryad" mənzum pyesi öz ideyalılığı baxımdan diqqəti cəlb edir. Görkəmli şair özü də "Fikir bahadırı" adlı məqaləsində bu ölməz sənətkarı həqiqətpərəstlik, qorxmazlıq, mübarizlik mücəssəməsi və simvolu olduğuna görə sevdiyini yazmışdır[30].

Yeddi şəkildən ibarət olan mənzum pyesdə birbaşa Nəsimi obrazı yaradılmadan Nəsimi adı ilə özünü tanıdan davamçılarının simasında Nəsimi və nəsimilik öz bədii ifadəsini tapmışdır. *"Nəsimilik fəlsəfəsinə əsaslanan pyes*"də[31] başlıca mətləb Nəsiminin və nəsimiliyin ideoloji mənası və mahiyyətidir. Fikrimizcə, B.Vahabzadə də konkret Nəsimi obrazından daha çox nəsimilik məsələsini qabardaraq yaşadığı konkret dövrə münasibət də daxil olmaqla hər cür ortodoksal, fikir mütləqiyyətçiliyi əleyhinə yeni fikir və azad düşüncə ideyasını ortaya qoymuşdur. Bu əsər üçün də xarakterik olan nəsimiliyin mahiyyətini qabarıqlaşdırmaq, açmaq və ifadə etmək baxımından mütləqiyyət və ortodoksallığı təmsil edən hökmdar və zahid obrazları ilə yeni, azad insan və düşüncə ideyasını təmsil edən Nəsimi davamçılarının mükaliməsi, müzakirəsi və deyişməsi kontekstində ifadəsidir.

Əmirin, Zahidin və Vəzirin ölüm fərmanı çıxaran haqsızlığına qarşı alim Loğmanın dilindən deyilən: *"İnsan öz fikrində deyil,*

---

[29] Qafarlı, R. Bəxtiyar Vahabzadə türk dünyasının istiqlal şairidir: [Elektron resurs] / http://isamveri.org/pdfdrg/D234591/2014_QAFARLIR.pdf.

[30] Vahabzadə, B. Sadəlikdə böyüklük. / B.Vahabzadə. – Bakı: Yazıçı, – 1978. – s.6

[31] Rəhmanova, İ. Bəxtiyar Vahabzadənin "Fəryad" pyesində Nəsimi obrazı // "Klassik Azərbaycan ədəbiyyatı: dil, üslub, ideya problemləri" mövzusunda 6-7 dekabr 2019-cu ildə Bakı Dövlət Universitetində keçirilmiş elmi konfransın materialları, – Bakı, – 2019, – s. 162

*hökmdar, yalnız əməlində günahkar olar”*[32] kimi müdrikanə fikirlər müəllifin məntiqi mühakimə yanaşmasıdır.

B.Vahabzadə də Nəsiminin özünü konkret bir obraz olaraq yaratmasa da, vəhdəti-vücud fəlsəfəsindən çıxış edərək onun yolunu davam etdirən, ideyalarını daşıyan, onların əməlləri və düşüncələri fonunda nəsimiçiliyi – Nəsiminin təlimini göstərmişdir. Müəllif Nəsiminin simasında hürufiliyin ideoloji məğzini insan amilində, idrakda görmüşdür.

Fikrimizcə, “Fəryad” mənzum pyesi bəzi alimlərin də dediyi kimi, lirik-psixoloji bir əsərdir, başlıca ideyası, “Nəsimi ölüb, amma nəsimilik yaşayır” fikrini ifadə edir. Şairin təbirincə, Nəsimi konkret olmasa da, öz təlimində, fikirlərində, ideyalarında, davamı və davamçıları olan nəsimilikdə və nəsimiçilikdə yaşayır.

Dissertasiyanın III fəslinin **“Naxçıvan ədəbi mühitinin nümayəndəsi Əkbər Məftunun “Nəsimi” pyesində Nəsimi obrazı”** adlı ikinci paraqrafında Əkbər Məftunun “Nəsimi” mənzum pyesində Nəsimi obrazının ümumi bədii xüsusiyyətləri barədə danışılmışdır. Əkbər Məftunun “Nəsimi” pyesində Nəsimi şəxsiyyətinin mübarizlik qüdrəti və dönməzlik, məğrurluq keyfiyyəti ilə bərabər, onun adı ilə yaşayan nəsimilik və nəsimiçilikdən bəhs edilmişdir.

Ə.Məftun Nəsimiyə və nəsimiliyə xalqın məhəbbət bəslədiyini göstərmişdir. Qamçılar altında ağrıdan inildəyən Şagirdin dediyi qəzəlin sahibinin kim olduğunu birdirməməsi tarixi əhvalatla üst-üstə düşür. Əkbər Məftunun Nəsimisi vətənpərvər, öz eli, obası, ölkəsi ilə fəxr edən bir şəxsiyyətdir. Bu mənada əsərdə Nəsimi bir vətənpərvər – elinə, obasına, xalqına bağlı bir qəhrəman, bir ideoloq – insanı Allahla eyniləşdirən və humanist bir təlim, ideya adamı, öz ideyaları uğrunda dönmədən mübarizə aparan bir Fəzlullah ardıcılı, habelə öz arxasınca minləri götürən və böyük bir insançı kütlə formalaşdıran hərəkat rəhbəri kimi obrazlaşmışdır.

**“Nəticə”** hissəsində tədqiqatın yekunları aşağıdakı kimi ümumiləşdirilmişdir.

---

[32] Vahabzadə, B. Əsərləri / B.Vahabzadə. – Bakı: Azərbaycan, – c. 8, – 2005. – s. 848

1. Çoxsaylı bədii əsərlərdə İ.Nəsiminin obrazı yaradılmışdır. Həyatı daha çox əfsanələrə bürünmüş sənətkarın dərisi soyularaq öldürülməsi haqda əhvalatlar ədəbiyyat nümunələrində ən çox bəhs edilən məsələ olmuş və Nəsimi idealları uğrunda dönməzlik göstərən şəxsiyyət-lider olaraq obrazlaşmışdır;

2. Poeziya nümunələrində Nəsiminin ya adı çəkilmiş, ya qismən, ya da əhatəliliklə obrazı yaradılmış, həyatı və yaradıcılığı, dövrü və müasirləri bədii əksin müstəvisinə çıxarılmışdır. Poeziya sahəsində kiçik lirik şeirlərdən poemalara qədər Nəsimiyə həsr olunan çoxsaylı əsərlər vardır;

3. Bu poetik nümunələrdə Nəsimi əqidəli bir şəxsiyyət olaraq öz amalı uğrunda dönməzlik və cəsarət göstərərək ən ağır cəza ilə öldürülən mübariz bir şəxsiyyət kimi obrazlaşmışdır. Nəsiminin azad insan və azad düşüncə haqqında fikirləri və onun dərisi soyularaq öldürülməsi poetik nümunələrdə obrazını tamamlayan vacib atributlar olaraq çıxış etmişdir;

4. Qeyd edilən əsərlər arasında S.Vurğundan başlayaraq R.Rzanın, Ə.Kərimin, Ə.Kürçaylının, X.Rzanın və çoxsaylı digər müəlliflərin böyük söz və fikir ustadı İmadəddin Nəsimiyə həsr olunan qiymətli şeirləri, Qabilin, R.Rzanın, N.Xəzrinin, M.Yaqubun və başqalarının poemaları Nəsimi şəxsiyyəti və ideallarının yaşadılması baxımından xüsusi yer tutur;

5. Bu əsərlərin hər birində Nəsimi obrazı ali, humanist ideyalı, öz idealları uğrunda dönməz və mübariz bir şəxsiyyət nümunəsi olaraq ümumiləşmiş və meyar kimi təqdim edilmişdir;

6. Azərbaycan bədii nəsrində, habelə İ.Hüseynovun "Məhşər", M.İsmayılın "İki od arasında" romanları, H.Mirələmovun "Son səfər" povesti və Y.V.Çəmənzəminlinin "Mirzə Əbdülvəhab" satirik hekayəsində Azərbaycanın mütəfəkkir şairi İmadəddin Nəsiminin obrazı yaradılmışdır;

7. Yazıçı İ.Hüseynovun "Məhşər" əsərində Nəsimi şəxsiyyəti ilə bərabər dövr və mühit də genişliklə əks etdirilmişdir. Əsərdəki Nəsimi obrazı yazıçının fərdi düşüncəsinin məhsulu olan bir surətdir;

8. M.İsmayılın "İki od arasında" romanında işğalçı yürüşlərə qarşı ağıllı hökmdar olaraq Şirvanşah İbrahimin uzaqgörənliyi göstərildiyi kimi, xalqın mənəvi simasını təşkil edən hürufi şair

İmadəddin Nəsiminin də möhtəşəm mübarizəsi və obrazı əks etdirilmişdir;

9. H.Mirələmovun "Son səfər" tarixi povestində Nəsiminin tərcümeyi-halı, dövrü və mühiti, apardığı mübarizə və mücadilə, əhatəli və təsirli şəkildə canlandırılmış, Nəsiminin Şamaxıya qayıdandan sonrakı acılı yaşantıları obrazlaşdırılmışdır;

10. Azərbaycan dramaturgiyasında F.Aşurovun "Nəsimi", B.Vahabzadənin "Fəryad", Ə.Məftunun "Nəsimi", S.Aruzun "Nəsimi" mənzum pyesləri böyük Azərbaycan şairi İmadəddin Nəsiminin taleyinə həsr olunmuş uğurlu bədii əsərlərdəndir;

11. B.Vahabzadənin "Fəryad" mənzum pyesində Nəsimi konkret şəxsiyyət və bir obraz olaraq iştirak etməsə də, nəsimiliyi yaşadan Nəsimiçilərin – I və II Nəsimi obrazlarının simasında Nəsimi idealları və mənəviyyatının obrazı yaradılmışdır. Əsərdə Nəsimi nəsimilik və nəsimiçilik olaraq canlandırılmışdır;

12. Eləcə də, Ə.Məftunun "Nəsimi" mənzum pyesi böyük ustad və ölməz şair İmadəddin Nəsimiyə həm Naxçıvan ədəbi mühitində həm də Azərbaycan ədəbiyyatında həsr edilmiş əsərlərdən biri kimi maraq doğurur. Ə.Məftun Nəsimi haqqındakı tarixi rəvayətlərdən yola çıxaraq edam səhnəsi əsasında Nəsiminin portretini cızmağa nail olmuş və onun əqidəsindən dönməzliyi barədə təəssürat formalaşdırmışdır;

13. Sayman Aruzun "Nəsimi" mənzum pyesində, əsasən, müasir Azərbaycan düşüncəsinə daşınan, məktəb təşkil edən və ənənə yaradaraq yaşayan nəsimilik və nəsimiçilik məsələsi ədəbi şəkildə obrazlaşdırılmışdır.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin respublikada və xaricdə dərc olunmuş aşağıdakı məqalələrində və konfrans materiallarında öz əksini tapmışdır:**

1. İmadəddin Nəsimi və ona həsr olunmuş bədii əsərlər // Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (humanitar elmlər seriyası), – 2017, №5 (86), I cild, – s. 58-61

2. Rəsul Rza poeziasında İmadəddin Nəsimi obrazı // Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (humanitar elmlər seriyası), – 2018, №1 (90), I cild, – s. 60-65

3. İmadəddin Nəsimiyə həsr olunan iki pyes haqqında // Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (humanitar elmlər seriyası), – 2018, №5 (94), I cild, – s. 57-62

4. İmadəddin Nəsimiyə həsr olunan bəzi poemalar // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019, №5, – s. 291-299

5. Muxtariyyət dövrü Naxçıvan ədəbi mühitində İmadəddin Nəsimi obrazı // – Naxçıvan Muxtar Respublikasinin 95 illiyinə həsr olunmuş Respublika Elmi Konfransının materialları, Naxçıvan:– 2019, s. 217-220

6. Works of art about Imadaddin Nasimi in Azerbaijani poetry // – Видавничий дім: Закарпатські Філологічні Студії, – 2020, Випуск 13, Том 3, s. 173-176

7. Художествунные произведения в Азербайджанской литературе, посвященные Имадеддину Насими // – Warsaw. Poland: International Journal of Innovative Technologies in Social science, – 2020, № 1(22), s.36-41

8. İsa Hüseynovun "Məhşər" əsərində Nəsimi obrazı //– Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi əsərləri, –2021, №4 (23), – s. 138-144

9. Azərbaycan ədəbiyyatında klassik yazarların obrazı //– Bilge Tonyukuk Anısına III. Uluslararası Türk dili ve edebiyyatları öğretimi Sempozyum Bildirileri, Ankara: – 2021, – s. 611-615

10. Qabilin "Nəsimi" poemasında Nəsimi obrazı //– "Çağdaş dönəmdə Türk dünyasının aktual problemləri" adlı onlayn Respublika Elmi Konfrasının Materialları, Lənkəran: –2021, s. 157-158

11. Mahmud İsmayılın "İki od arasında" əsərində Nəsimi Obrazı // – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi əsərləri,– 2022, №1 (25), II hissə. – s. 187-193

12. Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesində Nəsimi obrazı //–11th International Conference on Culture and Civilization, Mardin: Turkey, – 2022, – s. 287-291

13. Əkbər Məftunun "Nəsimi" pyesində Nəsimi obrazı // Bakı: – Bakı Slavyan Universtetinin Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, – 2022, № 4 – s. 155-169

14. İmadəddin Nəsimiyə həsr olunan tarixi poemalarda ədəbi dil məsələləri // – Çağdaş Azərbaycan dilinin aktual problemləri II Respublika Elmi Konfransının materialları // – Naxçıvan: 2023, s.132-134

15. İmadəddin Nəsimi yaradıcılığına Heydər Əliyev qayğısı // Алматы, Казахстан: – Международный научно-практический журнал, – 2023, səh. 91-94

16. İmadəddin Nəsimiyə həsr olunan şeirlərdə bədii təsvir və ifadə vasitələri // – Çağdaş Azərbaycan dilinin aktual problemləri III Respublika Elmi Konfransının materialları // Naxçıvan: –2023, s.108-111

17. Azərbaycan poeziyasında İmadəddin Nəsimi obrazı və ümumvətən ideyası // Naxçivan: –AMEA Naxçıvan bölməsi incəsənət, dil və ədəbiyyat institutunun axtarışlar jurnalı, – 2023, №3 (46) – s.27-32

Dissertasiyanın müdafiəsi 23 yanvar 2024-cü il tarixində saat 11 -da Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universitetinin əsas binası, I mərtəbə

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.12. 2023
Kağızın formatı: 60x90 1/16
Həcm: 41 835
Tiraj: 100